## FİLOLOGİYA PHILOLOGY

DOI: 10.36719/2663-4619/56/11-13

**Zəki Abdulla oğlu Vəliyev**
AMEA Geologiya və Geofizika İnstitutu

# PROFESSOR ABDULLA VƏLİYEVİN AZƏRBAYCAN FİLOLOGİYA ELMİNDƏ YERİ VƏ ROLU

**Xülasə**

Professor Abdulla Vəliyev Azərbaycan dilçiliyini nəinki respublikada, həmçinin keçmiş SSRİ-nin müxtəlif elm mərkəzlərində ən mötəbər, ali elmi məclislərdə konqresslərdə, simpoziumlarda, sessiyalarda və s. ən yüksək səviyyədə təmsil etmişdir. Abdulla Vəliyev Azərbaycan elminə bütün varlığıyla xidmət etmiş və Azərbaycan dilçiliyində öz sözünü deyə bilmişdir.
***Açar sözlər**: Abdulla Vəliyev, Azərbaycan dilçiliyi, filolgiya, elmi araşdırmlar*

**The place and role of professor Abdulla Valiyev in Azerbaijani philological science**

**Summary**

Professor Abdulla Valiyev presented Azerbaijani linguistics at the highest level not only in the Republic, but also in the most prestigious scientific centers of the former USSR, scientific assemblies, congresses, symposiums, sessions, etc. Abdulla Valiyev served Azerbaijani science with all his being and was able to have his say in Azerbaijani linguistics.
***Key words:** Abdulla Valiyev, Azerbaijani linguistics, philology, scientific researches*



Dünyanın səkkizinci möcüzəsi – doğma Azərbaycanımız yalnız zəngin və təkrarsız təbii sərvətləri – qara və ağ qızılı, əlvan, nadir və nəcib metalları, planetimizdə analoqu olmayan həyat eleksiri – naftalanı, min bir bar və neməti, iqlim və geosiyası mövqeyi ilə deyil, ümumbəşəri sivilizasiyaya bəxş etdiyi Nəsimi, Nizami, Füzuli, M.F.Axundov, C.Məmmədquluzadə, M.Ə.Sabir, Hüseyn Cavid, C.Cabbarlı, M.Müşfiq, Səməd Vurğun, Əliağa Vahid, Ayzek Əzimov, Üzeyir Hacıbəyli, Müslim Maqamayev, Qara Qarayev, Fikrət Ənıirov, mayestro Niyazi, M.Rostropoviç, memar Əcəmi, Mikayıl Useynov, Səttar Bəhlulzadə, Tahir Salahov, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Nəsrəddin Tusi, Bənmənyar ibn Mərzban, M.Mirqasımov, Heydər Hüseynov, Lütfizadə, Landau, Azad Mirzəcanzadə və başqa çoxlu sayda dühaları, həmçinin bir neçə çap vərəqinə sığışmayan korifeyləri – dövlət xadimi və sərkərdələri; elm, ədəbiyyat, incəsənət və mədəniyyət xadimləri ilə bir çox məmləkətlərdən seçilir. Lakin bu xəyali ədəbiyyat, incəsənət, elm və intellekt, «kahkəşanı»nda xalqımızın bir çox ləyaqətli övladları bəzən özlərinə qarşı son dərəcə tələbkar və olduqca təvazökar olduqlarından, bəzən isə obyektiv və subyektiv səbəblərdən parlamırlar. Həmin bu ulduzlar yalnız müəyyən anlarda məxsusi bucaq altında sayrışırlar. Adətən nəhəng ulduzlar zəif parıltıya malik olurlar.

Azərbaycan aliminin, ziyalısının, müəlliminin ən ali mənəvi keyfıyyətlərini özündə ehtiva edən xalqın fəxr edə biləcəyi, ləyaqətli oğlu, fılologiya elmləri doktoru, professor – VƏLİYEV ABDULLA HÜSEYN oğlu belə ulduzlardan biri idi. Belə Böyük İnsan, müqəddəs Ata haqqında öz duyğularını izhar etınək mənəvi rahatlıq, şərəf işidir, digər tərəfdən onun artıq 34 ilə yaxın əbədiyyətə qovuşduğunu – cismani yoxluğunu bir daha hiss etmək son dərəcə ağır və dözülməzdir.

Dünyamızın ən yüksək dağ silsiləsinin əzəmətini onun yaxınlığında və ya üzərində olarkən bir o, qədər hiss edə bilmərik. Bu möhtəşəmliyi yalnız ondan xeyli uzaqlaşdıqca dəyərincə qiymətləndirə bilərik.

İnsan da, xüsusən nurlu səxsiyyət də elədir. Mən 30 ildən artıqdır ki, Bakı Dövlət Universitetinin geologiya fakültəsində seçmə fənlərdən dərs deyirəm. Bizim "Faydlı qazıntılar" kafedrasının rəhbəri Azərbaycanın ən görkəmli metallagenist alimindən biri AMEA-nın akademiki, Əməkdar Elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, professor Vasif Məmmədağa oğlu Baba-zadə yüksək intellekt sahibi və ünsiyyətli sima olduğundan onun otağında həmişə universitetin, AMEA-nın görkəmli alimləri, həmkarları, tanınmış insanlar olurlar. Mən müəyyən məsləhət və yaxud hər-hansı bir məsələni həll etmək üçün onun otağına daxil olarkən Vasif müəllim alicənab insan olduğu üçün

məni həmişə belə təqdim edir – Azərbaycanın ən görkəmli dilçi alimlərindən biri – ABDULLA müəlimin oğlu, sonradan isə mənim haqqımda xoş sözlər söyləyir. İnanın ki, bəzi zəka sahibləri, xüsusən, mədəniyyət, incəsənət, elm insanları və başqalarından fərqli olaraq, artıq yaşım atamı keçsə də (0, 76 yaşında haqq dünyasına qovuşmuşdur), fəxr edir və qürur duyuram ki, belə müdrik şəxsiyyətin oğluyam. Eyni sözləri atamın Azərbaycanın bütün güşələrində çox saylı adlı-sanlı tələbələri və onu tanıyanlardan dəfələrlə eşitmişəm. Bu gün, mənim zənnimcə, bu ifadə – ABDULLA müəlim – yüksək mənəviyyat, düzgünlük, saflıq, nəciblik, xeyirxahlığın və alicənablığın sinonimidir. Buna görə də Vasif müəllimə və onu xöş xatirələrində yaşadanlara öz dərin hörmət və ehtiramımı bildirirəm.

Hər şeyin maddiyyata qurban verildiyi, mənəvi-insanı keyfiyyətlərin hərraca qoyulduğu zamanda bu özünü daha bariz surətdə əks etdirir. Unudulmaz Abdulla müəlimin dolğun həcmi və canlı portretini yaratmaq üçün onun xasiyyətinin bəzi həqiqətlərini nəzərinizə çatdırmaq istərdim.

1960-cı ilin yay mövsümündə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) geololoji-coğrafiya fakültəsinə daxil olmaq üçün Nizami küçəsi №49 ünvanında Azərbaycan Pedaqoji İnstitutunun binasında azərbaycan dili və ədəbiyyatından yazılı qəbul imtahanı çox güman ki, laboratoriya dərsləri üçün nəzərdə tutulmuş, uzun partalara malik, böyük bir auditoriyada keçirilməli idi. Burada 175 nəfər məzun səbirsizliklə imtahanın başlamasını gözləyirdi. Lakin o, 45 dəqiqə keçmasinə baxmayaraq, hələ də başlamırdı. Hamı, hətta komissiya üzvləri – müəllimlər təlaş içərisində idi. Sən demə Abdulla müəllim oğlunun orada olduğu üçün bu imtahanda iştirak etməkdən imtina etmişdir. Axırda bu xəbər o, zaman universitetin rektoru olan akademik Ş.F.Mehdiyevə çatmış və o, “nəyin bahasına olur-olsun Abdulla müəllimi gətirin, çünki mən özümdən çox ona inanıram”. Nəhayət təxminən bir saatdan sonra Abdulla müəllim əsəbi halda auditoriyaya daxil oldu və böyük yerdəyişmə – müəyyən “hazırlıqlar” görmüş şagirdləri pərən-pərən etmə əməliyyatını apardı. İndi bu dediklərim yalnız lətifə effektini verə bilər. Bəli Abdulla müəllim belə obyektiv, prinsipial, vicdanlı pedaqoq və alim idi.

Bütün mənalı ömrünü xalqın varlıq meyarı olan dil və ədəbiyyatın dərin elmi axtaşdırmasına sərf etmiş, sözün həqiqi mənasında əsl pedaqoq, ensiklopedik biliyə malik Abdulla müəllim elmdə özünəməxsus izi və məktəbi olan görkəmli alim idi. O, elmdə novatorluğu, bir neçə elmi cərəyanın simbiozunu yaratmağı çox sevirdi. Təsadüfi deyildir ki, onun – həmkarlannın, məsləkdaşlannın, dostlarının, əzizlərinin təkidilə yazdığı (65 yaşında) doktorluq dissertasiyasında Azərbaycanda ilk dəfə, riyazi (həndəsi fiqurlardan istifadə) coğrafı (şivə və dialektlərin yayılma qanunauyğunluqlarının və dəyişmə xüsusiyyətlərinin izoqloslarla ifadəsi) üsullarının tətbiqi buna bariz nümunədir.

Abdulla müəllim Azərbaycan elmini - dilçiliyini nəinki respublikada, həmçinin keçmiş SSRİ-nin müxtəlif elm mərkəzlərində ən mötəbər, ali elmi məclislərdə konqresslərdə, simpoziumlarda, sessiyalarda və s. o zamankı ən məşhur akademiklər qarşısında ləyaqətlə təmsil edirdi.

Elm və tədrislə nəfəs alan, son dərəcə cəfakeş və təvazökar, nurlu şəxsiyyət olan Abdulla müəllimin ən çox nifrət etdiyi cəhət elmi mənsəbpərəstlik – karyerizm idi. Onun həyat kredosu sevdiyi hər bir şeyə – elmə, sənətə, xalqa, ailəyə bütün varlığı ilə təmənnasız xidmət etmək və özünü bu yolda lazım gələrsə, hətta fəda vermək idi.

Yüksək mənəviyyata, mədəniyyətə və etik normalara malik bu alicənab İnsan, o zaman sovet idealogiyasının və ateizmin tüğyan etdiyi dövrdə, tam ciddiliyi ilə yasaq edilən İslam fəlsəfəsinə və dəyərlərinə söykənərək, həyatda paklıq, ruhən təmizlik xeyirxahlıq yolunu tutmuşdu. O, məşəqqətlərlə dolu bütün ömrü boyu (özünün və ailəsinin də nıaraqlarının zərbə altına qoyulmasına baxmayaraq) bir dəfə də olsun haram tikə yeməmiş və bir şey qəbul etməmişdir. Bu yerdə qeyd etmək lazımdır ki, bu gün din-təriqət azadlığı dövründə, çoxlarının dəbə uyğun islama yönəlməsi, saysız-hesabsız hacılar, kərbəlayilər, məşədilər ordusunun yaranması məncə, elə bir böyük qəhrəmanlıq deyildir. Əgər bu bəzi üzdən-iraq ülamalar üzərlərinə düşən xeyirxahlıq missiyasını lazımınca yerinə yetirmiş olsaydılar buna ancaq sevinmək olardı. Əfsuslar olsun ki, bu belə deyildir.

Bəzi nadanlar Abdulla müəllim haqqında, öz düşüncə tərzlərinə görə, mentalitetlərindən irəli gələrək fağır, yazıq, sakit və s. epitetlərdən istifadə edirdilər. Onlar tərəfından yüksək mənəviyyat, ədəb-ərkan, təvazökarlıq, təmkinlik və digər ibrətamiz xüsusiyyətlər başqa cür yozula bilməzdi. Düşünmürdülər ki, onun həssas qəlbində həmişə öz-özü ilə mübarizə fırtınaları baş verirdi. Abdulla müəllim çox duzlu, dərin mənalı və yerində söylənmiş yumora malik İnsan idi. Onun hər bir zarafatı, elə bil ki, bayrama çevrilirdi. Boşboğazlıqdan uzaq olan bu İnsanın sanki hər bir sözünün arxasında fəlsəfl duyum, böyük bir hikmət dururdu.

İstedadh alım, gözəl müəllim, əsl ziyalı – Abdulla müəllim qayğıkeş, zəhmətkeş, mehriban, ata, ailəbaşçısı idi. Hələ gənc yaşlarından 2-3 ailənin yükünü öz kövrək çiyinlərində daşımasına baxmayaraq, bir dəfə də bunu biruzə verməmişdi. II Dünya müharibəsində 21 yaşında ikən tibb alayında, bizim rəvan və

xoşbəxt yaşamağımız naminə, alman faşizminə qarşı minlərlə Vətən övladı kimi, Şimalı Qafqazda Novorosiysk şəhəri yaxınlığında dəhşətli döyüşlərdə ayağından ağır yaralanmış və sağaldıqdan sonra arxa cəbhədə fədakarlıqla xidmət etmiş, orden və medallarla yanaşı "Müharibə veteranı" adına layiq görürülmüşdür. Məhz buna görə, alman faşizmi üzərində qələbənin 75-ci il dönümü ərəfəsində, (ölkə prezidenti möhtərəm İlham Əliyevin sərəncamına əsasən müharibə vətəranlarının övladlarının gəlir vergisindən azad olunması ilə əlaqədar) bütün ömrünü bizə həsr etmək azmış kimi, vəfatından 34 il sonra "haqq dünyasından belə öz kömək əlini uzatmışdır". 76 illik mənalı ömründə cəmi bircə dəfə, o da ailə üzvlərinin təkidi ilə Kislovodsk kurortında dincəlmişdır. Onun qaba, təhqiredici söz işlətməsi, ucadan danışması yadımda deyildir. Əgər bizim hər hansı bir hərəkətimiz və ya fəaliyyətimiz onun xoşuna gəlmirdisə, onun öz dərin mənalı, sərt baxışları ilə buna nüfuz etməsi kifayət edir və günahkarı xəcalət kirdabına düçar edirdi.

Abdulla müəllim çoxlarına örnək olacaq həyatında nə qazanmışdısa, yalnız və yalnız öz istedadı, alın təri, zəhməti hesabına, köməksiz, arxasız – necə deyərlər pay-piyada – istər bu elmin zirvələrinə doğru yol olsun, istərsə də ekspedisiya zamanı kəndbəkənd, oba-oba, qarış-qarış gəzdiyi doğma Azərbaycan olsun, yaxud «göz dəyimli» bağına gedən istiqamət olsun fərqi yoxdur. Lakin tam səmimiyyətlə deyirəm ki, onun bir dəfə də belə məşəqqətli həyatından şikayət etdiyini görməmişəm. Əksinə, o, çox optimist və demokratik ruha malik İnsan idi. Heç bir zaman öz iradəsini başqalarına zor gücünə aşılamazdı.

Mənalı ömrünün 55 illini tədrisə həsr etmiş Abdulla müəllim ifrat dərəcədə tələbkar, prinsipial, bəzən isə hətta despotizmə qədər ciddi idi. Buna gözəl misal onun fənn imtahanlarını bir neçə gün aparması ola bilər. Lakin buna baxmayaraq, tələbələrinin ən sevimli müəllimlərindən idi. O, xüsusən yaxşı oxuyan, lakin ehtiyacı olan, kimsəsiz tələbələrə xüsusi atalıq qayğısı və mehribanlıqla yanaşırdı. Bu illər ərzində tələbə və yetişdirmələrindən hətta çiçək dəstəsi də qəbul etməmişdir. Çox təkid edəndə ürəyini sındırmamaq üçün zarafatla deyərdi: «Övladım, diqqətinə görə minnətdaram, amma yaxşı olar ki, bu çələngi valideynlərinə Abdulla müəllimdən qiymət alaraq, canını qurtardığın üçün göz aydınlığı kimi təqdim edəsən».

Bəli, Abdulla müəllimin zəhməti hədər getməmişdir. Onun Azərbaycanın ən ucqar guşələrində belə olan saysız-hesabsız tələbələri arasında yüzlərlə alimlər – elmlər doktorları, hətta akademiklər də vardır. Bundan başqa onun qızı, fılologiya elmləri doktoru Kamilə xanım, gəlini istedadlı müəllim və alim, dosent Gülxanım müəllimə, nəvələri, nəticələri onun məslək, amal estafetini ləyaqətlə daşıyırlar. Deməli heç bir şey itmir və hər şey İnsanlara qalır, həmçinin ruh da. Nə qədər ki, Abdulla müəllimi sevənlər, onu yad edənlər yaşayır, deməli, o, da bizim aramızdadır, xatirələrimizi məşğul edir, bizə yol göstərir.

## Ədəbiyyat

1. Əzizov E. Xalq şivələri öyrənilir // Azərbaycan müəllimi 1976, 13 fevral.
2. Əzizov E. Görkəmli alim, gözəl müəllim// Lenin tərbiyəsi uğrunda. 1977, 12 dekabr.
3. Əzizov E.Örnək olan ömür // Azərbaycan müəllimi. 1990, 5 dekabr.
4. Зейналов Ф.Г. , Азизов Э.И. Абдулла Гусейн оглы Велиев : К семидесятилетию со дня рождения // Сов. Тюркология. 1980, 1.
5. Naxçıvan MSSR-in dialekt və şivələri. Bakı: Azərb. EA nəşriyyatı,1962.
6. Багиров А.А., Азизов Э.И. Абдулла Гусейн оглы Велиев. Советская тюркология. 1986, 3.
7. Budaqov R.A. Dilçiliyə aid oçerklər. Bakı: Azərb. Dövlət nəşriyyatı,1956.

Göndərilib: 25.07.2020 Qəbul edilib: 28.07.2020